www.525.az Facebook.com/525.az İnstagram.com/525ciqezet

# Hadrutda tarix yazan əsgərlərimiz!


CAHANDAR CAHANDAROV

ELMAR NƏSİBOV



FUAD NƏBİYEV

Azərbaycan Ordusunun cəbhədə uğurlu əməliyyatları davam edir. Demək olar ki, hər gün biz işğal altındakı ərazilərimizin geri alınması barədə xəbərlər eşidirik. Belə sevincli xəbərlərdən birini oktyabrın 9-da Prezident İlham Əliyev xalqa müraciəti zamanı çatdırdı. O, Xocavənd rayonunun Hadrut qəsəbəsinin, eləcə də Çaylı, Yuxarı Güzlək, Gorazıllı, Qışlaq, Qaracallı, Əfəndilər, Süleymanlı və Sur kəndlərinin düşməndən azad edildiyini açıqladı. Həmin müraciətində Prezident dedi: "Bu kəndlərin və Hadrut qəsəbəsinin işğaldan azad edilməsi tarixi qələbəmizdir. Azərbaycan işğal altında olan torpaqları işğaldan azad edir. Demək olar ki, hər gün cəbhədən xoş xəbərlər gəlir. Hər gün bizim əsgər və zabitlərimiz döyüş tapşırıqlarını şərəflə yerinə yetirirlər. Eyni zamanda, strateji yüksəklikləri götürərək daha əlverişli mövqelərə sahib olurlar. Beləliklə, əməliyyat planı tam icra edilir, əməliyyat planı müasir döyüş prinsiplərinə əsaslanır. Azərbaycan Ordusu həm maddi-texniki təchizat baxımından, eyni zamanda, döyüş hazırlığı baxımından bu gün döyüş meydanında tam üstünlüyə sahib olub.

Bu gün aparılan döyüşlərdə düşmənin hərbi texnikası böyük dərəcədə məhv edilib və eyni zamanda, hərbi qənimət götürülüb. Deyə bilərəm ki, sentyabrın 27-dən bu günə qədər bütövlükdə Ermənistan Ordusuna çox böyük zərbə vuruldu. Mən, sadəcə olaraq, Azərbaycan Ordusu tərəfindən məhv edilmiş və hərbi qənimət kimi götürülmüş Ermənistanın hərbi texnikasının siyahısını sizin diqqətinizə çatdırmaq istərdim. Ermənistanın itkiləri ilə əlaqədar məlumat verirəm: 16 komanda məntəqəsi məhv edildi, 196 tank məhv edildi, 38 BM-21, 1 "Uraqan", 10 özüyeriyən artilleriya qurğusu, - onlardan 8-i "Akasiya", 2-si "Qvozdika", - 36 piyadaların döyüş maşını, 24 artilleriya batareyası, 2 RM və ya hava hücumuna qarşı müdafiə vasitəsi, 2 "S-300" kompleksinin buraxıcı qurğusu, 25 OSA zenit-raket kompleksi, 2 KUB zenit-raket kompleksi, 4 "Repelend" radio-texniki maneə vasitəsi, 136 top, 56 minaatan, 1 TOS-1A odsaçan sursatı, 2 radiolokasiya stansiyası, 1 "Kalçuqa" anteni.

Qənimət kimi götürülmüş hərbi texnika aşağıdakı kimidir: 18 tank, 4 top, 22 piyadaların döyüş maşını, 12 minaatan, 4 UAZ maşını, 1 ekskavator, 27 "İqla" kompleksi, 1 ZİL maşını, 9 QAZ maşını".

Azərbaycan Müdafiə Nazirliyi isə Hadrud əməliyyatında iştirak etmiş bir sıra qəhrəman döyüşçülərimizin şəkillərini yayıb. Bununla bağlı nazirliyin qısa açıqlamasında deyilir:

"Hadrut qəsəbəsi 1992-ci il oktyabrın 2-dən Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuşdu.

Ali Baş Komandanın rəhbərliyi altında şanlı Ordumuzun keçirdiyi uğurlu əks-hücum əməliyyatı nəticəsində Hadrut qəsəbəsi, eyni zamanda, ətraf kəndlər işğaldan azad edildi və ordumuzun tam nəzarətindədir. Azərbaycan Ordusu 28 illik həsrətə son qoydu".

Hadrut qəsəbəsinin və digər yaşayış məntəqələrimizin işğaldan azad olunmasında fədakarlıq nümayiş etdirən hərbi qulluqçularımızın bir neçəsi adları qeyd edilənlərdir: Fuad Nəbiyev, Fərid Aydilov, Cahandar Cahandarov, Fuad Qafarzadə, Elmar İsmayılov, Elmar Nəsibov.


ELMAR İSMAYILOV

FƏRİD AYDİLOV



FUAD QAFARZADƏ